# Sabirabadda xoş ovqat yaşanır





Böyük iqtisadi potensiala malik Sabirabadda dinamik iqtisadi inkişafla yanaşı mədəni yüksəlişə də böyük önəm verilir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin bərəkətli Muğan düzünün xoş növrağı üçün həyata keçirdiyi məqsədyönlü tədbirlər bu bölgənin sürətli inkişafında başlıca şərt olmuşdur.

Ölkənin qabaqcıl kənd təsərrüfatı rayonu kimi məşhur olan Sabirabad həm də mədəniyyət mərkəzi kimi şöhrət qazanmışdır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə sovet dönəmində Sabirabadda möhtəşəm mədəniyyət sarayı inşa olunmuşdur. Bu isti münasibət və böyük qayğı rayonda kənd təsərrüfatı ilə yanaşı, mədəniyyət sahəsinin inkişafında da güclü təkan oldu. İllər ötüb keçdi, zaman dəyişsə də, dövlət rəhbərliyi səviyyəsində Sabirabada isti münasibət dəyişmədi. Heydər Əliyev siyasi kursuna bütün parametrlər üzrə sadiq qalan Prezident İlham Əliyev Muğan düzünün mərkəzinə çevrilmiş Sabirabada münasibətdə də əvvəlki mövqeyi qoruyub saxladı. Dövlət başçısının bölgə əhalisinə qayğı və diqqətinin nəticəsidir ki, Sabirabad bu gün ölkədə sosial-iqtisadi inkişafın həcminə və sürətinə görə ən qabaqcıl rayonlardan biridir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa olunmuş mədəniyyət sarayının illər sonra Prezident İlham Əliyevin tapşırığı ilə əsaslı şəkildə yenidən qurulması rayon əhalisində hədsiz razılıq və minnətdarlıq hissi doğurur. Rayonun mədəniyyət və turizm şöbəsi 41 klub, 58 kitabxana, Ü.Hacıbəyli adına uşaq musiqi məktəbi, Heydər Əliyev Mərkəzi, tarix-diyarşünaslıq muzeyi vasitəsilə rayon əhalisinə xidmət göstərir. Maddi-texniki bazanın möhkəmləndirilməsi, kadrların düzgün seçilib yerləşdirilməsi, bədii özfəaliyyətin canlandırılması, əhalinin asudə vaxtının mənalı keçməsini təşkil etmək istiqamətində həyata keçirilən tədbirlər səmərə verməkdədir. Şöbənin əməkdaşları respublikada və rayonda keçirilən mədəni-kütləvi tədbirlərdə bir qayda olaraq fəal iştirak edirlər. Gənc istedadların üzə çıxarılması sahəsində görülən işlər də qənaətbəxşdir.

Mərkəzi kitabxana fondu 475.290 nüsxə təşkil edir. Kitabxanalarda keçən il 32715 oxucuya xidmət göstərilmişdir. Kitab fondu ildən-ilə zənginləşir. Keçən il rayon mərkəzi kitabxana sisteminə 294 nüsxə latın qrafikalı ədəbiyyat daxil olmuşdur. Bütövlükdə latın qrafikalı kitabların sayı 90.850 nüsxəyə çatır.

Sabirabadlılar üçün Heydər Əliyev Mərkəzi sevimli məkandır. Burada ulu öndərin xalqa bağışlanmış ömrünün unudulmaz anlarını əks etdirən eksponatlar nümayiş etdirilir. Sabirabad Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Əhməd Ramazanov bu barədə belə dedi:

- Azərbaycan xalqının və dövlətinin taleyində Heydər Əliyevin xilaskarlıq missiyası hər kəsə yaxşı məlumdur. Sabirabadlılar bütün zamanlarda Heydər Əliyev siyasi kursuna sədaqətli olublar. Ulu öndərin rayon mərkəzində ucaldılmış əzəmətli abidəsi və möhtəşəm saraya bənzəyən mərkəz məhz o böyük tarixi şəxsiyyətə sonsuz məhəbbət və ehtiramın parlaq ifadəsidir. Mərkəzdə nümayiş etdirilən eksponatların sayı 537-yə çatır. Keçən il mərkəzdə 9291 ziyarətçi olmuşdur. Burada Heydər Əliyev irsinin öyrənilməsi üçün müxtəlif yaş təbəqələrini əhatə edən 5 dərnək fəaliyyət göstərir.

Yazın gəlişi ilə torpağın oyandığı, təbiətin cana gəldiyi bu günlərdə Muğan bölgəsində xoş ovqat yaşanır. Elimizin əziz bayramı olan Novruz Sabirabadda həmişə təmtəraqla qarşılanır. Rayon mədəniyyət və turizm şöbəsi Novruz bayramı ilə əlaqədar xüsusi tədbirlər planı hazırlamışdır. Hər il olduğu kimi, mədəniyyət işçiləri yenə də rayon ərazisindəki hərbi hissədə olaraq, əsgər və zabitlərə Novruz xonçaları, rəngarəng musiqi çələngi ərməğan edəcəklər. Bu günlər özfəaliyyət kollektivləri də çox çalışırlar. Əhmədabad kənd folklor evinin nəzdində fəaliyyət göstərən Axıska-türk mahnı və rəqs ansamblı bölgədə məşhurdur. Kollektiv 1970-ci ildə yaranmışdır. 18 nəfərdən ibarət kollektivin bədii rəhbəri İkramcan Xanzayevdir. Respublika miqyaslı tədbirlərdə, el şənliklərində fəal iştirakına görə kollektiv dəfələrlə diplom və fəxri fərmanlarla təltif olunmuşdur. Kollektiv Novruz bayramı üçün xüsusi proqram hazırlamışdır.

A.İsgəndərov adına Sabirabad xalq teatrının nəzdində fəaliyyət göstərən "Mübarizlər" qrupu vətənpərvərlik ideyalarının böyük təbliğatçısı kimi ölkədə yaxşı tanınır. Qrupun üzvləri Qarabağ müharibəsi əlilləridir. Qrupa xalq teatrının rejissoru Seyidməmməd Əliyev rəhbərlik edir. Qrupun hazırladığı tamaşalar ölkəmizin dövlət müstəqilliyinə, Qarabağ müharibəsinə, şəhidlərin ölməz xatirəsinə, soyqırımı hadisələrinə, deportasiya məsələlərinə həsr edilmişdir. Bu özfəaliyyət kollektivi müxtəlif illərdə respublikada keçirilən əlillərin yaradıcılığına baxış-müsabiqələrin beş dəfə qalibi olmuş, yüksək mükafatlara layiq görülmüşdür.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*